# PAŞAYEV BAXŞEYİŞ XANƏHMƏD OĞLU



Paşayev Baxşeyiş 1 may 1936-cı ildə Ağdam rayonunun Əhmədavar kəndində anadan olmuşdur. Yeddinci sinfi bitirdikdən sonra Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1954-cü ildə texnikumu bitirərək, Ağdam Atçılıq Sovxozunda mexanizator işləməyə başlamışdır. 1965-ci ildən sürücü kimi fəaliyyətə başlayan B.Paşayev sonralar Xalq Hərəkatına qoşulmuş, tez bir zamanda "Qarabağ Müdafiə Şahinləri" dəstəsinin ən fəal döyüşçülərindən olmuşdur. Xramort kəndinin ermənilərdən təmizlənməsində igidlik göstərmişdir. Döyüşçülər arasında "ağsaqqal" ləqəbi ilə tanınırdı. B.Paşayev mahir atıcı olmaqla yanaşı, həm də gözəl kəşfiyyatçı kimi dəfələrlə Fərrux, Aranzəmin, Naxçıvanik, Xanabad kəndlərində kəşfiyyatda olmuşdur. O, 10 aprel 1992-ci ildə Şuşakənddə ermənilərin çox mühüm döyüş nöqtələrini məhv etmək üçün vertolyotçularımıza bələdçilik etmişdir. Baxşeyiş Xocalı faciəsi zamanı əhalinin çıxarılmasında böyük fədakarlıq göstərmişdir. O, öz kəşfiyyatçıları ilə öndə gedərək Əsgərandakı "QAİ" postuna qədər irəliləyib, 90 nəfərə qədər azərbaycanlı qız-gəlini ermənilərdən azad etmiş, 25 nəfər ermənini isə öldürmüşdür. 1992-ci il iyulun 12-də Xanabad kəndinə hücuma keçən zaman Baxşeyişin dəstəsi düşmənin 7 postunu ələ keçirmişdir. Gərgin keçən döyüşlərdə B.Paşayev qəhrəmancasına həlak olmuşdur Ağdam rayonundakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Doqquz övladı var. Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Paşayev Baxşeyiş Xanəhməd oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.